# VƏTƏN BÖLÜNMƏZDİR

## *29 il əvvəl Lənkəranda baş vermiş hadisələr bunu bir daha təsdiq etdi*

**1993-cü ilin həyəcanlı yayı. Gənc, müstəqil Azərbaycan dövləti çox çətin, mürəkkəb, ağır, böhranlı günlər yaşayırdı. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz rəhbərliyi nəticəsində ölkədə qanunlar işləmir, bütün sahələrdə hərc-mərclik, xaos, böhran baş alıb gedirdi.**

İyunun 4-də Gəncədə törədilən qırğın ölkəni vətəndaş müharibəsi həddinə çatdırmışdır. Xarici və daxili düşmənlər vəziyyətdən məharətlə istifadə edərək Azərbaycanı daxildən parçalamaq, müstəqilliyimizi, dövlətçiliyimizi məhv etmək istəyirdilər. Cənub bölgəsində Əlikram Hümbətovun rəhbərliyi ilə separatçı qüvvələrin baş qaldırması, qondarma Talış-Muğan respublikasının yaradılmasına cəhd göstərilməsi həmin planın tərkib hissəsi idi.

Rayonda ictimai-siyasi vəziyyət günbəgün pisləşirdi. Əlikram Hümbətov hakimiyyət boşluğundan istifadə edərək iyunun 14-dən 15-nə keçən gecə ətrafına yığdığı silahlı dəstə ilə Lənkəran Şəhər İcra Hakimiyyətinin binasını zəbt etdi. Səhər Lənkəranda çevriliş baş verdiyi barədə xəbər yayıldı.

Ə.Hümbətov Lənkəran şəhərindəki hərbi hissəni də ələ keçirmişdi. İcra hakimiyyətinin binası hərbçilər tərəfindən qorunurdu.

İyun ayının 15-də Lənkəran şəhər sovetinin sessiyası çağırıldı. Bəzi deputatlar silah gücünə evlərindən gətirildi. Əli avtomatlıların müşayiəti ilə keçən sessiyada heç bir qanuna məhəl qoyulmadı, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsi Ə.Hümbətova həvalə edildi.

Bir gün sonra Moskvanın "Vesti" proqramı Lənkəranda hakimiyyətin yıxıldığı, Ə.Hümbətovun başçılığı ilə Talış-Muğan respublikası yaradıldığı xəbərini yaydı. Bunu yalan informasiya və Moskvanın növbəti təxribatı kimi qiymətləndirdilər.

Lakin separatçıların planları gizli qalmadı. Ələ keçirdiyi hərbi hissədə "TMR" yaradıldığı və Ə.Hümbətovun "Baş Komandan" təyin olunduğu barədə xəbər yayıldı. "Lənkəran" qəzetində "Baş Komandan"ın əmrləri, sərəncamları dərc olunmağa başlandı.

İyun ayının 27-də şəhərin Ziyalılar evində Azərbaycan Xalqlarının Bərabərliyi Partiyasının konfransı keçirildi. Partiyanın sədri Hilal Məmmədov qondarma qurumun elan edilməsi münasibətilə konfrans iştirakçılarını təbrik etdi. Çıxışlarda yeni qurumun qanunauyğun olmasını əsaslandırmağa çalışdılar.

Yerli əhali bu ideyanı qətiyyən dəstəkləmirdi. Rayonun bir qrup tanınmış ziyalısı, ağsaqqalı icra hakimiyyətinə gələrək qondarma quruma kəskin etirazlarını bildirdilər. Aşağı Nüvədi qəsəbəsinin sakini, tanınmış təsərrüfatçı Hacı Əliyev Əlikram Hümbətova "Sizə kim ixtiyar verib ki, talışı Azərbaycana qarşı qoyasınız, bu, talışlara qarşı düşmənçilikdir", - dedi.

Görkəmli tarixçi-alim, professor Musa Quluzadə o vaxt mətbuatda mövqeyini açıq bildirmişdi: "Mən əslən Masallıdanam. Masallıda bir neçə talış kəndi var. Uşaqlığım, gəncliyim o yerlərdə keçib. Lənkəranda texnikumda oxumuşam. Heç vaxt ayrı-seçkilik görməmişəm. Talış, azərbaycanlı məsələsi heç təsəvvürümüzə də gəlməyib. Təkcə Masallıda yox, Lənkəranda da, Astarada da belə idi. Bir torpağın, bir xalqın övladı sayıb özünü azərbaycanlı da, talış da.

Bu yaxınlarda Lənkərana getmişdim. Cəlilabad və Lənkəran yolunda BTR-ləri və onların yanında dayanmış əsgərləri görəndə, doğrusu ürəyim ağrıdı. Yəni özümüz özümüzü işğal edirik?! Qarabağda texnikaya, əsgərə ehtiyac olduğu vaxt bunları görəndə böyük Sabirin sözləri yada düşür: "Kim nə deyər bizdə olan qeyrətə...".

Talış respublikası ideyasının ortaya atılması düşmən dəyirmanına su tökməkdir, Azərbaycan dövlətçiliyinə daxildən vurulan zərbədir. Belə adamlar - dövlət içərisində dövlət yaratmaq istəyənlər kimliyindən asılı olmayaraq xalq qarşısında ciddi ittiham olunmalıdırlar.

Üzümü Masallı-Lənkəran bölgəsində yaşayan camaata, həmyerlilərimizə tutub onları heç bir təxribata uymamağa çağırıram. Onlar həmişə bir olublar, bundan sonra da bir olsunlar".

İyul ayının 9-da Ə.Hümbətovun təşəbbüsü ilə Lənkəran şəhər sovetinin daha bir növbədənkənar sessiyası çağırıldı. Bu dəfə Lənkəran valisinin və onun birinci müavininin seçkilərinin keçirilməsi barədə məsələ müzakirə olundu. Deputatların əksər hissəsi belə bir qurumun yaradılmasının Konstitusiyaya zidd olduğunu və buna etirazlarını bildirsələr də, avqustun 22-nə vali seçkiləri təyin olundu.

İyulun 17-də keçirilən növbədənkənar sessiyada daha bir qanunsuzluğa imza atıldı, "TMR"in "Xalq Məclisi"nə nümayəndələr seçildi. Qondarma qurumun rəhbərlərinin qəbul etdiyi saxta qərarlar, açıq-aşkar insanların taleyi ilə oynaması yerli əhalinin, xüsusən ziyalıların heysiyyətinə toxunurdu.

Vəziyyətlə barışmayan bir qrup ziyalı iyulun 22-də Bakıya gedərək Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun qəbulunda oldular. Görüşdə Lənkərandakı vəziyyət barədə ətraflı məlumat verildi.

Həmin gün axşam saat 10-da xalqımızın müdrik rəhbəri, Ali Sovetin sədri Heydər Əliyevin iş otağında keçirilən görüşdə respublikamızın güc nazirləri, dövlət qurumlarının nümayəndələri, cənub rayonlarından seçilmiş deputatlar iştirak edirdilər. Lənkərandan gəlmiş ziyalılardan Yaşar Rzayev, Səmədağa Səmədzadə və Həzi Əliyev vəziyyət barədə məlumat verərək, əhalinin Heydər Əliyevin siyasətini dəstəklədiyini, onun xəttini müdafiə etdiyini bildirdilər. Vəziyyəti normallaşdırmaq üçün Heydər Əliyev müvafiq qurumların rəhbərlərinə konkret tapşırıqlar verdi.

Lənkəranda vali və onun birinci müavininə namizədlər qızğın seçki kampaniyasına qoşulmuşdular. Rayonun şəhər, qəsəbə və kəndlərində seçicilərlə görüşlər keçirilir, yerli televiziya vasitəsilə təbliğat aparılırdı.

Avqust ayının 7-də Lənkəran Dövlət Dram Teatrının binasında qondarma qurumun "Ali Xalq Məclisi" çağırıldı. Ə.Hümbətov rayonlara təyin etdiyi icra başçılarına tapşırmışdı ki, 30-40 nəfər nümayəndə ilə Lənkərana gəlsinlər. Teatrın binası hərbçilər tərəfindən qorunurdu. Mətbuat işçilərini içəri buraxmırdılar. Rayonlardan gələnlərə mandat verilir və onları "Ali Xalq Məclisi"nin nümayəndələri adlandırırdılar. Biləsuvardan və digər rayonlardan gələnlərin bir qismi etirazlarını bildirib zalı tərk etdilər.

Əlikram Hümbətov çıxışında qanunsuz əməllərinə don geyindirir, "TMR"in yaradılmasının labüdlüyünü sübuta yetirməyə çalışırdı. Nümayəndələrin bir neçəsi bu ideyanın əsassız olduğunu, ona bu yoldan çəkinməyi söylədilər.

Lerikli ağsaqqal Hacı Şamil İsgəndərov Əlikram Hümbətova müraciətlə dedi: "Əlikram, bu iş baş tutan deyil. Muxtariyyət məsələsi ancaq dövlət səviyyəsində, Konstitusiya çərçivəsində olmalıdır. Mənim beş gəlinim var. Gəlinlərimin biri Gəncədən, biri Bakıdan, biri Naxçıvandan, biri Göyçaydan, biri Lənkərandandır. Mən indi yaşımın bu vaxtında bu işə necə qol qoya bilərəm? Respublikanın, Allaha şükür, ağsaqqalı və müdrik rəhbəri var. O da Heydər Əliyevdir".

Bütün etirazlara baxmayaraq, Ə.Hümbətov qanunsuz qurumun "prezidenti" elan olundu. "Xalq Məclisi"nin sədri, müavinlər və "baş nazir" seçildi.

Dövlətçiliyə, müstəqilliyə, Heydər Əliyev siyasi kursuna sadiq qüvvələr o ağır günlərdə Yeni Azərbaycan Partiyası Lənkəran Rayon Təşkilatının sədri Dilrüba Camalovanın kabinetinə yığışır, gündəlik vəziyyəti müzakirə edirdilər. Ə.Hümbətovun Konstitusiyaya, dövlətçiliyə və xalqa zidd mövqeyi ilə əlaqədar Lənkəran ictimaiyyətinin nümayəndələrinin müraciətini hazırlayıb ölkə rəhbərliyinə çatdırdılar.

Müraciətdə deyilirdi: "Tarixi köklərlə bir-birinə bağlanan, bir-birini tamamlayan, qaynayıb qarışan, doğmalaşan lənkəranlılar - istər talış olsun, istər türk, özlərini Azərbaycan xalqının tərkib hissəsi, Lənkəranı isə Azərbaycan torpağının ayrılmaz parçası hesab edirlər.

...Biz belə hesab edirik ki, bütün bunlar Azərbaycan dövlətçiliyinə, respublikada yaranmaqda olan sabitliyə, Azərbaycanın bütövlüyünə qarşı ağır qəsddir".

Avqust ayının 13-də Azərbaycan Respublikasının Ali Sovetində Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılar ilə görüş keçirildi.

Görüşü xalqımızın müdrik rəhbəri, Ali Sovetin sədri, prezident səlahiyyətlərini icra edən Heydər Əliyev açaraq bildirdi ki, cənub bölgəsində baş verən hadisələr həm o rayonların əhalisini, həm də Azərbaycan ictimaiyyətini narahat edir, çünki bu proseslər neqativ xarakter daşıyır. Bu proseslər qanun pozuntularıdır, bəzi insanların hüquqlarını pozur və ümumiyyətlə, Azərbaycanda gərgin olan ictimai-siyasi vəziyyəti daha da gərginləşdirir.

Görüşdə 26 nəfər çıxış edərək məsələyə öz münasibətini bildirdi. Yeni Azərbaycan Partiyası Lənkəran Rayon Təşkilatının sabiq sədri, mərhum Dilrüba Camalovanın həyəcanlı çıxışı hamını təsirləndirdi: "Birincisi, mən bütün lənkəranlılar adından çox üzr istəyirəm, bütün Azərbaycan xalqından, bütün şəhid analarından, bu günlər Ağdamdan, Kəlbəcərdən, bütün regionlardan köçüb küçədə torpaq üstə yatanlardan. Çünki onların bu ağır vəziyyətində biz Lənkəranda isti yerimizdə, öz otağımızda, oturub sosial məsələlər adı ilə problem qaldırmaqla və respublika rəhbərliyinin başını bu işlərə qatmaqla əslində, ermənilərin dəyirmanına su tökürük. Buna görə mən xəcalət çəkirəm, Heydər Əliyev".

Xalq deputatı Yaşar Rzayev dedi: "Hamı yaxşı bilir ki, bu hadisəni Lənkəran camaatı ilə, Lənkəran rayonu ilə, o cümlədən Lənkəran bölgəsi ilə bağlamaq olmaz. Bunu ancaq bir qrup silahlı adamın törətdiyi hadisə kimi qiymətləndirmək lazımdır. Lənkəran camaatı hər hansı muxtar qurumun, hər hansı bir respublikanın yaradılmasının əleyhinədir. Biz özümüzü Azərbaycanın bir hissəsi hesab edirik. Lənkəranlılar özlərini Azərbaycan xalqının ayrılmaz tərkib hissəsi hesab edirlər. Burada məqsəd adamları bir-birinə qarşı qoymaq, xalqı parçalamaqdır. Biz buna yol verməyəcəyik".

Xalq deputatı Sultan Məmmədov separatçıların məkrli niyyətlərini açıqladı: "Mən o regiondan, Astaradan deputat seçilmişəm və camaatın da fikrini yaxşı bilirəm. Camaatın 99 faizi bu məsələyə razı deyil. Mən hesab edirəm ki, burada nə iqtisadi məsələ, nə etnik məsələ, nə də digər məsələ əsas rol oynamır. Əsas məsələ respublikanın, xalqın bu ağır vaxtında, müharibə gedən bir vaxtda respublikanın başını qatmaqdan, hakimiyyət iddiasından, səlahiyyət davasından ibarətdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev görüşü yekunlaşdıraraq Ə.Hümbətovun hərəkətlərini Azərbaycan dövlətçiliyinə qarşı xəyanət kimi qiymətləndirdi: "Biz bundan sonra da şübhəsiz ki, lazımi tədbirlər görməliyik. Ancaq bir şey aydındır ki, Əlikram Hümbətovun hərəkətləri Azərbaycanın Konstitusiyasını, qanunlarını pozan hərəkətlərdir. Əlikram Hümbətovun ixtiyarında olan silahlı dəstələr qeyri-qanuni silahlı dəstələrdir. O, silahlı dəstələri Əlikram Hümbətova verən adamlar Azərbaycan xalqına xəyanət ediblər. Bunların hamısına son qoyulmalıdır və bunlara siyasi qiymət verilməlidir".

Cənub zonasının nümayəndələrinə müraciət edən ümummilli lider dedi: "Hamı bilsin ki, başqa yol yoxdur. Bu prosesə son qoyulmalıdır və beləliklə Azərbaycanda baş vermiş bu qeyri-qanuni proseslər tamamilə ləğv olunmalıdır. Neytral mövqe tutmaq, bitərəf qalmaq, laqeydlik göstərmək, yaxud yaxanı kənara çəkmək indi yaramaz".

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 13 avqust.- S. 8.